Qazaxıstan Respublikası Baş nazirinin müavini Krımbek Kuşerbayevin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına səfəri çərçivəsində yanvarın 10-da Qəbələ rayonuna gəlmişdir. Nümayəndə heyəti Qəbələ Beynəlxalq Hava Limanında hörmətlə qarşılanmışdır.




Qəbələ ilə tanışlıq zamanı qonaqlara rayonun sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlər və əldə edilən uğurlar barədə ətraflı məlumat verilmişdir. Qeyd olunmuşdur ki, bu gün respublikamızda əldə edilən sosial-iqtisadi inkişafın bariz nümunəsini Qəbələ rayonunun simasında aydın görmək olar. Rayonda yaradılan yeni istehsal müəssisələri, sənaye və turizm obyektləri Qəbələnin iqtisadi inkişaf dinamikasının artmasında müstəsna rol oynayır. İri miqyaslı beynəlxalq tədbirlərin Qəbələdə keçirilməsi bu diyarın füsunkar və ecazkar təbiətə malik olduğunu bir daha təsdiq edir.

# Qazaxıstan Respublikası Baş nazirinin müavini Krımbek Kuşerbayevin rəhbərlik etdiyi nümayəndə heyəti Qəbələ rayonuna səfər etmişdir



Qonaqlar əvvəlcə rayonunun Ovculu kəndində yeni istifadəyə verilmiş iribuynuzlu heyvandarlıq kompleksinin fəaliyyəti ilə tanış olmuşlar. Onlara məlumat verilmişdir ki, 2012-ci ilin noyabrında fəaliyyətə başlayan kompleksdə 660 baş inək və düyə bəslənilir. Rayonda heyvandarlığın inkişafı üçün Avstriyadan gətirilən cins inəklərin hamısından yaxın vaxtlarda yeni balaların əldə edilməsi gözlənilir.

Qəbələ Konserv Zavodunda istehsal prosesi ilə yaxından tanış olan Baş nazirin müavini Krımbek Kuşerbayev və onun rəhbərlik etdiyi nümayəndə heyətinə məlumat verilmişdir ki, 12 hektar ərazidə yerləşən müəssisənin istehsal gücünə və texnoloji avadanlığına görə Qafqazda analoqu yoxdur. Zavodda "Tetra Pak" xətti istismara verilmiş, xaricdən gətirilən avadanlıq quraşdırılıb. Müəssisənin iş prinsipi xammal qəbulundan başlayaraq hazır məhsulun qablaşdırılmasına qədər bütün prosesləri əhatə edir. Ümumilikdə 350 nəfərin çalışdığı müəssisədə 30 çeşiddə meyvə şirəsi, konsentrat, nektar, 12 çeşiddə turşu, tomat, mürəbbə, cem, soyuq çaylar, 15 çeşiddə yarımfabrikat məhsullar hazırlanır. Məhsullar daxili bazara çıxarılmaqla yanaşı, 30-dan çox ölkəyə ixrac edilir.

Qonaqlar Qəbələ limonad zavoduna da baş çəkmiş, müəssisənin istehsal prosesi ilə maraqlanmışlar. Məlumat verilmişdir ki, istehsal prosesinin tam avtomatlaşdırıldığı müəssisədə beş çeşiddə məhsul—kola, tərxun, düşes, limon, üzüm limonadları, həmçinin qazlı və qazsız sular hazırlanır. Məhsullar müxtəlif tutumlu plastik və şüşə qablarda bazara çıxarılır. İllik istehsal gücü 50 milyon litr olan zavodda 60 nəfər işlə təmin edilmişdir. Sonra nümayəndə heyəti Qəbələdə meyvə-tərəvəz məhsullarının saxlanılması üçün inşa edilmiş soyuducu anbar kompleksi ilə də tanış olmuşdur. Məlumat verilmişdir ki, üç hektar ərazini əhatə edən anbarda 5 min ton meyvə-tərəvəz məhsulları saxlamaq mümkündür. İtaliya istehsalı olan avadanlığın quraşdırıldığı anbarda məhsulların saxlanılması xüsusi texnologiya ilə həyata keçirilir. Soyutma sistemi dispetçer məntəqəsindən idarə olunur və anbarlara yığılan məhsulun uzun müddət saxlanması üçün xüsusi nəmləndirici proses həyata keçirilir.

Müəssisədəki meyvəçeşidləmə sexinə də baş çəkən qonaqların diqqətinə çatdırılmışdır ki, burada quraşdırılan avadanlıq meyvələrin rənginə və ölçüsünə görə çeşidlənməsinə imkan verir.

Qonaqlar Qəbələyə səfərin sonunda beşulduzlu "Qafqaz Riverside", "Qafqaz Resort", "Qafqaz Sport" otelləri, "Fitnes" istirahət-sağlamlıq mərkəzi, rayonda yaradılmış müasir turizm infrastrukturu, Qəbələnin füsunkar təbiəti ilə də tanış olmuşlar.

Qəbələ ilə tanışlıq, rayonda aparılan tikinti-quruculuq və abadlıq işləri Qazaxıstandan olan nümayəndə heyətində zəngin təəssürat yaratmışdır. Qonaqlar Azərbaycanın dünyada turizm ölkəsi kimi tanınması üçün böyük potensiala malik olduğunu və bu istiqamətdə böyük işlər görüldüyünü söyləmiş, ölkəmizin sosial-iqtisadi inkişafının, bölgələrdə müasir texnologiyaya əsaslanan infrastrukturun, sürətlə inkişaf edən turizm sektorunun iqtisadiyyatımıza verəcəyi töhfələri yüksək qiymətləndirmiş və Qəbələyə səfərlərindən məmnunluqlarını ifadə etmişlər.

**Fotolar S. Umuyevindir.**

# Doğma ölkəmizdə

## "Böyük Bakının Regional inkişaf planı" layihəsi hazırlanır

"Böyük Bakının Regional inkişaf planı" layihəsinin baş mühəndisi Əhliman Şükürov bildirmişdir ki, bu sənəd artıq tamamlanmaq üzrədir. Layihənin baş operatoru Bakı Dövlət Layihə İnstitutudur. Bu sənədin hazırlanması işlərinin cədvəlinə uyğun olaraq müvafiq dövlət qrumlarından lazımi ilkin materiallar-məlumat bazası toplanmışdır. Böyük Bakının əhatə etdiyi 283 min hektar ərazidə mövcud iqtisadi duruma daxil olan komponentlər-nəqliyyat sahəsi, tikinti kompleksi, ekoloji vəziyyət, sənaye, ümumiyyətlə, iqtisadiyyatın bütün sahələri öz əksini tapıb.

## "ASAN xidmət" saytı fəaliyyətə başlamışdır

Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "ASAN xidmət" mərkəzinin saytı fəaliyyətə başlamışdır. Vətəndaşlar "asan.gov.az" portalına daxil olmaqla mərkəz tərəfindən göstəriləcək xidmətlərin növləri ilə tanış ola bilərlər. Yanvarın 15-dən "onlayn növbə" bölməsi vətəndaşlara növbə tutmaq imkanı yaradacaqdır. Tezliklə fəaliyyətə başlayacaq "Çağrı" mərkəzləri vasitəsilə vətəndaşlar internet və ya telefonla bütün xidmət növləri ilə tələb olunan sənədlər barədə məlumat ala bilərlər. Telefonlardan birbaşa 108 nömrəsinə edilən zəng və aparılan danışıq, habelə "Çağrı" mərkəzi tərəfindən göstərilən bütün xidmətlər ödənişsizdir.

## Kreditlər 0,9 faiz ucuzlaşıb

Mərkəzi Banka istinadən «APA-Economics»-in yaydığı məlumata görə, 2012-ci ilin yanvar-noyabr aylarında ölkə üzrə verilən kreditlərin (11,7 milyard) orta faiz dərəcəsi illik 15,4 faiz təşkil edib. Bu əvvəlki ilin eyni dövrünə nisbətən 0,9 faiz aşağıdır. Kredit portfelində böyük yer tutan Bakıda kreditlərin faiz dərəcəsi əvvəlki ilə (15,7 faiz) nisbətən azalaraq 14,6 faiz olub. Kreditlərin faiz dərəcələri ölkənin ayrı-ayrı ərazilərində də fərqli olub. Bəzilərində aşağı düşsə də, bəzilərində arıb. Qəbələnin daxil olduğu Şəki-Zaqatala iqtisadi rayonunda kreditlər bahalaşıb. Xatırladaq ki, verilən kreditlərin 7,2 faizi uzun müddətli olmaqla 33,5 faizi dövlət, 65 faizi özəl banklar, 2,5 faizi isə bank olmayan kredit təşkilatlarının payına düşmüşdür.

## Ötən il 60,1 min tondan çox benzin ixrac olunub

ARDNŞ-nin mətbuat xidməti xəbər verir ki, 2012-ci ilin dekabr ayında 1985 ton avtomobil benzini, 81 min 285 ton dizel və 24 min 560 ton təyyarə yanacağı, eləcə də 179 ton soba mazutu, 30 min 135 ton vaakum qazoylu ixrac edilmilib. Mətbuat xidməti bildirir ki, ötən il dekabr ayında 1 ton avtomobil benzinin qiyməti 955,16, təyyarə yanacağının qiyməti 982,20, dizel yanacağının qiyməti 914,14, bir faizli kükürdlü mazutun qiyməti isə 597,07 dollar təşkil etmişdir.

## Orta aylıq əməkhaqqı artıb

Dövlət Statistika komitəsinin məlumatına görə ötən ilin yanvar-oktyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əməkhaqqı 2011-ci ilin müvafiq dövrünə nisbətən 9 faiz artaraq 390,2 manat təşkil etmişdir. Bu göstərici neft sektorunda 1413,7, qeyri-neft sektorunda 361,7, dövlət bölməsində 327,7, özəl bölmədə isə 488,9 manat olmuşdur.

(Ardı 5-ci səhifədə)